# Psixoorqanik (orqanik, ensefalopatik) sindrom

Ümumi psixi acizlik halı, zehni, iradi və yaddaşın zəifliyi ilə, affektiv labilliyi, əmək və adaptasiyanın digər qabiliyyətlərinin azalması ilə müşayət olunur. Çox zaman psixopatoloji simptomatika beynin ocaqlı zədələnmə əlamətləri ilə yanaşı aşkar edilir. Bu ocaqlı pozuntular psixopatoloci əlamətlərini törədir. Yüngül hallarda orqanik mənşəli psixopatobənzər cizgilər, asteniyanın əlamətləri, affektiv labillik və təşəbbüsin zəifləməsi aşkar edilir. Müxtəlif dərəcədə təzahür olunan psixoorqanik sindrom rezidual hal kimi də qala bilər, lakin bəzi hallarda tədricən proqrediyentli gedişatı da olur, aşağıda sadalanan variantlar şəklində mərhələdən mərhələyə tədricən inkişaf edir.

Sindromun variantları:

1- astenik variant – şiddətli fiziki və psixi tükənmə, qıcıqlı zəiflik, hiperesteziya şəklində kəskin asteniyanın əlamətlərinin üstünlüyü müşəhidə olunur. Affektlərin davamsızlığı aşkar edilir.

2- eksploziv variant – əsəbilik, brutal və labilli affekt, adaptasiyanın zəifləməsi, bəzən yüngül dərəcədə dismnestik pozuntular (yadda saxlamağın və yada salma və tanıma qabiliyyətin zəifləməsi) aşkar edilir. İnterkurent xəstəliklərin, intoksikasiyanın və yahud meteoroloji amillərin (atmosfer təzyiqin dəyişməsi) və psixogen travmaların nəticəsində eksploziv sindromun dinamikası asılı ola bilər. Psixotravmaların nəticəsində xəstədə histerik pozuntular biruzə verə bilər (tutmalar, düşüncənin alaqaranlıq pozuntusu, psevdodemensiya).

3- eyforik variant – əhval-ruhiyyənin yüksəlməsi və eyforiəya, çaşqınlıq, tənqidin zəifliyi, dismnestik pozuntular və meyllərin oyanması müşahidə olunur. Çox zaman qəzəb affektlər biruzə verir, lakin sonra kədər, göz yaşları və acizlik halı baş verir.

4- apatik variant – aspontanlıq, maraq dairəsinin daralması, ətrafda baş verən hadisələrə biganəlik və dismnestik pozuntular aşkar edilir.

**Müxtəlif xəstəliklərdə baş verən psixoorqanik sindrom:**

Bu sindrom kəllə-beyin travmaların uzaq dövründə, intoksikasiyaların, xroniki somatogen xəstəliklərin, infeksiyaların və baş beynin orqanik xəstəliklərin nəticəsində yarana bilər.